## Tofiq NƏCƏFLİ – 60

# ŞƏRƏFLİ ÖMRÜN 60-cı BAHARI



*Nazim* Məmmədov
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun baş elmi işçisi, t.e.d, dosent.*

Yaşa dolduqca, zəngin həyat təcrübəsi qazandıqca bizdən sonra gələn gənc nəsil qarşısında böyük bir borcumuzun olduğunu dərk edirik. Tofiq müəllim kimi vətənpərvər ziyalımızı kifayət qədər tanımayan gələcək nəsillərə daha yaxşı tanıtmaq, onun müsbət iş üslubunu, uğurlu fəaliyyət tərzini nümunə olaraq istifadə edilməsi üçün onlara bilgi ötürmək, onun həyat və fəaliyyətinə ədalətli və obyektiv qiymət vermək bizim nəslin gənclər qarşısında borclarımızdan biridir. Bu addımı atmağımızın əsas səbəblərindən biri odur ki, Tofiq müəllim həyatım boyu qarşılaşdığım istedadlı, fədakar, problemlərə ədalətlə, vətəndaş mövqeyindən yanaşan, ən başlıcası isə səmimi və mərd soydaşlarımızın öndə gedənlərindən biridir.

T.e.d., dos. Tofiq Nəcəflinin çox sadə və sadə olduğu qədər də şərəfli bir tərcümeyi-halı var: Tofiq Hümbət oğlu Nəcəfli 1960-cı ildə Füzuli rayonunda anadan olmuşdur. O, 1968-1978-ci illərdə Aşağı Seyidəhmədli kənd orta məktəbində təhsil almışdır. 1982-1987-ci illərdə Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) tarix fakültəsinin əyani şöbəsini "əla" qiymətlərlə bitirmişdir. 1987-1990-cı illərdə təyinatla göndərildiyi İsmayıllı rayonu Buynuz kənd orta məktəbində tarix müəllimi işləmişdir.

Tofiq Nəcəfli 1990-1993-cü illərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əyani aspiranturasında təhsil almış və 1993-cü ildə həmin İnstitutun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdur. 1994-cü ilin iyununda "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Hazırda o, A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır. Tofiq Nəcəflinin cəmiyyət içərisində yeri və mövqeyini tam və doğru şəkildə müəyyənləşdirmək üçün onun xarakterindəki iki cəhətini xüsusi qeyd etməliyik. Tofiq Nəcəfli Allahın ona bəxş etdiyi şəxsi keyfiyyətlər, normal və fitri istedadıdır.

Eyni zamanda, onun bu istedaddan necə istifadə etməsi, daha doğrusu fədakarcasına, gecə-gündüz dincəlmək bilmədən əmək və yaradıcılıq məhsullarına çevirməsi, ölkəsinə və xalqına çox keyfiyyətli əsərlər və xidmət təqdim etmişdir. Tofiq Nəcəfli gərgin zəhmət və fədakar əmək nəticəsində 2016-cı ildə, akademik Yaqub Mahmudovun rəhbərliyi altında "Azərbaycan Səfəvilər dövlətinin xarici siyasəti Türkiyə tarixşünaslığında" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Müəllif, orta əsrlər Şərqinin qüdrətli bir dövlətinin – Azərbaycan Səfəvi imperiyasının 235 il davam edən bir dövr ərzində qonşu dövlətlərlə yanaşı, Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinin yaranması və inkişafının müasir Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsini öyrənmiş, əldə olunan fakt materiallarını müxtəlif mənbələr və mövcud elmi ədəbiyyatla müqayisə edərək elmi-məntiqi nəticələr çıxarmış, müqayisəli təhlil metodundan istifadə edərək ümumiləşdirmələr aparmış, Azərbaycan Səfəvi dövlətinin xarici siyasətini o dövrün beynəlxalq münasibətləri ilə vəhdətdə vahid problem kimi araşdırmışdır. Çox hörmətli Tofiq müəllim problemin əhəmiyyətini, aktuallığını, həm də indiyədək ayrıca tədqiqat obyekti olmadığını nəzərə alaraq, əsas diqqəti Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin başlıca məsələlərinə yönəltmişdir. Çox böyük elmi və praktik əhəmiyyətə malik olan həmin sanballı əsərdən və orada istifadə olunmuş faktiki materiallardan və əldə edilmiş nəticələrdən universitetlərin tarix fakültələrində "Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti müasir Türkiyə tarixşünaslığında" mövzusunda ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərinin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə olunmuşdur.

Apardığımız müşahidələrə görə Tofiq müəllim işgüzarlığı nəticəsində, eyni zamanda bir neçə işi uğurla yerinə yetirmək bacarığına malikdir. O, səmimi, sözünü açıq söyləməkdən çəkinməyən, verdiyi vədi tamamilə və vaxtında yerinə yetirməyə çalışan, baş verən hadisələrə özünəməxsus münasibəti olan, öz mövqeyini sona qədər müdafiə edən, hər bir ciddi məsələyə vətəndaşlıq mövqeyindən yanaşan, ciddiliyi ilə seçilən, hər cür zəhmətə qatlaşan və möhkəm yaddaşa malik olan şəxsiyyətdir. Onun elmi və ictimai fəaliyyəti intensiv, davamlı olduğu kimi həm də çoxşaxəlidir.

Onun "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşü-naslığında" (Bakı, 2000), "Qaraqoyunlular və Ağqoyunlular" (Təbriz, 2012), "Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri" (Bakı, 2012), "Səfəvi-Osmanlı münasibətləri (Bakı, 2014)" və "Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti" (Bakı, 2020) adlı monoqrafiyaları çap olunmuşdur. Bununla yanaşı, o, Azərbaycan tarixi. Abituriyentlər üçün vəsait. – Bakı: "Kür", 1999. – 132 s.; Azərbaycan tarixi. Abituriyentlər üçün vəsait. – Bakı: "Kür", 2001. – 132 s.; Azərbaycan tarixi: Test tapşırıqları 10-cu sinif üçün. – Bakı, "Elm", 2003. – 184 s.; "Xalqların böyük köçü" və Azərbaycan: Magistr hazırlığı üçün proqram. – Bakı, "BDU", 2008. – 16 s.; Z.V.Toğan. Azərbaycan. – Bakı – "Ocaq", 2007, 88 s.; Əmir Teymur. – Bakı: "Yeni nəsil", 2002. – 16 s.; Orta əsrlər tarixi: Müəllim üçün vəsait (7-ci sinif üçün). – Bakı: "Yeni nəsil", 2003. – 96 s.; Tarixin interaktiv təlimi. Müəllimlər üçün metodik vəsait Red.: F.Babayev. – Bakı: "Çaşıoğlu", 2002, – 127 s.; Azərbaycan tarixi. (Azərbaycan Respublikasında təhsil alan xarici tələbələr üçün) Dərs vəsaiti. (Bilal Dədəyevlə həmmüəllif). – Bakı: 2013. – 287 s.; Ümumi tarix 8. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Ümumi tarix fənni üzrə Dərslik. – Bakı: Aspoliqraf, 2015. – 128 s. – Həm-müəllif; Ümumi tarix 9. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün



Ümumi tarix fənni üzrə Dərslik. – Bakı: Şərq-Qərb, 2016. – 134 s. – Həmmüəllif adlı elmi-metodiki kitabların və dərs vəsaitlərinin və 130-dan artıq elmi məqalənin müəllifidir.

T.H.Nəcəfli Respublikamızla yanaşı, Türkiyə, Çexiya, Rusiya Federasiyası və İran İslam Respublikasında keçirilmiş beynəlxalq elmi konfranslarda həmişə fəal iştirak etmişdir. Türkiyə, İran, Argentina və Rusiyada onun elmi məqalələri çap olunmuşdur. Onun El renacimiento de una potencia Historia Tomo XXXII, №125, Marzo-mayo. Buenos Aires, 2012, p. 47-58;

Azərbaycan Ağqoyunlu dövlətinin Gürcüstanla münasibətləri. Qarapapaqlar. (Tbilisi). – 2011. – №10 (52). – s. 21-27; Safavi-Ottoman wars and Azerbaijan at the beginning of the XVII century (A glance on Turkish historiography) - Tbilisi, 2010. №5. r. 101 -105; The relations of the Safavi state and the Turkestan khans in the XVII century in modem Turkish historiography

İstanbul Barış Antlaşmasından Sonra Safevi-Osmanlı Diplomatik İlişkileri. XVII. Türk Tarih Kongresi 15-17 Eylül 2014 Ankara. Gongreye Sunulan Bildiriler. IV. Cilt-IV Kısım. Osmanlı tarihi. – Ankara: 2018. – s. 1603-1622; Safevi Devletinin bayrakları. Alevi Araştırmaları Dergisi. – Ankara: 2018. – YazSummer 2018, Sayı Issue 15. – s. 31-46; Kahkaha Kalesi'nin 20 Yıllık Mahpusu: İsmail Mirza Safevi Akademik Tarih ve Düşünce Dergisi, Cilt:6 Sayı:2, Haziran 2019, s. 495-518; və digər əsərləri çox böyük maraqla qarşılanmışdır.

Tofiq Nəcəfli hansı mövzuda yazırsa-yazsın, hansı məsələ və problemlə bağlı çıxış edirsə etsin – bunların hamısına çox ciddi və vətəndaşlıq mövqeyindən yanaşır. Bütün bunlara görə də onun çoxsaylı yazı və çıxışları məzmunca çox dolğun və səviyyəli olur. Öz sözünü vaxtında və yerində deməyi bacaran hörmətli Tofiq müəllim, nəşr olunmuş "Qubadlı: Azərbaycan torpağı Zəngəzurun qapısı", çapa təqdim olunan iki cildlik "Naxçıvan tarixi" və "Şəki: ən qədim zamanlardan günümüzədək" mono-qrafiyalarının həmmüəlliflərindən biridir. T.H.Nəcəfli, həmçinin "Azərbaycan tarix atlası"na (Bakı, 2007) daxil olan XV-XVII əsrlər Azərbaycan tarixinə dair 7 xəritənin də həmmüəllifidir.

Öz həyatını elmə, gənc nəslin təlim-tərbiyəsinə həsr edən T.H.Nəcəfli on ildən çox Bakı Dövlət Universitetinin tarix fakültəsində orta əsrlər tarixinin tədrisini həyata keçirmişdir. O, həmçinin magistraturada "Xalqların böyük köçü və Azərbaycan" mövzusu üzrə mühazirələr oxumuşdur. O, hazırda Tarix İnstitutunda magistrlərə "Azərbaycanın orta əsrlər tarixinin mənbəşünaslığı və tarixşünaslığı", "Azərbaycan dövlətlərinin beynəlxalq əlaqələri (XV-XVII əsrlər)", "Azərbaycan dövlətçiliyinin təkamülü (IX-XVI əsrlər)" mövzusunda mühazirələr oxuyur.

Müasir Azərbaycan tarixində öz dəsti-xətti ilə seçilən Tofiq Nəcəflinin keçdiyi zəngin elmi yaradıcılıq yolu, onu mükəmməl bir tarixçi kimi tanıtmış və oxucularına sevdirmişdir. T.e.d. Tofiq Nəcəfli İnstitutda doktorantura və dissertantura yolu ilə yüksək ixtisaslı kadrların hazırlanması işinə də rəhbərlik edir. Hazırda onun rəhbərliyi altında 5 nəfər tarix üzrə fəlsəfə doktoru hazırlanır.

Çox hörmətli Tofiq müəllim, Sizi doğum gününüz münasibətilə səmimi qəlbdən təbrik edir, uğurlu və şərəfli işinizdə müvəffəqiyyətlər, həyatınızda uzun-mənalı və sağlam ömür arzulayıram!

***2020***

